Ədalət.- 2021.- 14 yanvar. S. 4.



***Aqşin Dadaşoğlu***

**Allah verən bir ömürü beləcə,**
**Bir gün toyda,bir gün yasda yaşadıq.**
**”Adam” ilə dolu oldu hər küçə,**
**”Soxasoxda”,basabasda yaşadıq.**

**Adam gördüm başı balıq beyindi,**
**Adam gördüm fikirləri peyindi,**
**Adam gördüm ömrü boyu deyindi,**
**Donquldana ayı ömrü yaşadı.**

**”Oğul”gördüm büdcəmizə yan aldı,**
**Nəsli üçün nələr,nələr götürdü...**
**Oğul gördüm Şəhid oldu Şuşada,**
**Medalını ”katibələr” götürdü.**
**Kişi gördüm əyilmədi,sınmadı,**

**Sınanların əli ilə döyüldü.**
**Kişi gördüm yandırdılar yanmadı,**
**”Kişi” gördüm doğulandan əyildi.**

**Bir tərifin ovqatına bayıldıq,**
**Düz sözümüz yerə düşdü heç oldu.**
**Üstümüzə Vətən çəkdik ayıldıq...**
**Ayılanada,ayılanda gec oldu...**